## Con Steynbek

# Səhər yeməyi

(Hekayə)



> ***Çadırın örtüyü qalxdı və oradan cavan bir oğlan çıxdı, onun arxasınca da yaşlı bir kişi gəlirdi. Onlar mavi rəngli yeni cins kombinezon və bürünc düymələri parıldayan cins gödəkcə geyinmişdilər. Hər ikisinin üz cizgiləri iti idi və bir-birinə bənzəyirdilər.Cavanın qara qısa saqqalı və qocanın da boz qısa saqqalı vardı...***

***Bu hadisə bütün vücuduma yağ kimi yayılır. Səbəbini bilmirəm, amma həmin hadisə ən xırda detallarına qədər gözümün önündədir. Onu tez-tez xatırlayıram, hər dəfəsində də yaddaşımın dərinliyindən daha çox detal üzə çıxır, xatırlama özü ilə maraqlı və xoşagələn bir həzz gətirir.Səhər tezdən idi. Şərqdəki dağlar göy və qara rənglərə çalır, onların arxasından gələn azacıq rənglənmiş işıq dağların başına toxunan yerində əvvəl açıq qırmızıya, sonra daha soyuq rənglərə çalır, boz rəngə boyanır və yuxarıya doğru getdikcə tündləşirdi. Lap yuxarıda isə, Qərb tərəfdə gecə ilə qovuşurdu.Həm də soyuq idi, kəsici şaxta deyildi, amma mən əllərimi tez-tez ovuşdurmalı və ciblərimin lap dərinliyinə salmalı, kürəyimi əyməli və ayaqlarımı yerə döyəcləməli olurdum. Vadinin aşağısında, mənim dayandığım yerdə, torpaq sübh çağının açıq bənövşəyi, boz rənglərinə boyanmışdı.***

Mən kənd yolu ilə gedib irəlidə torpaqdan azacıq açıq boz rəngli bir çadır gördüm. Çadırın yanındakı köhnə paslı dəmirdən olan qaz sobasında yanan odunların narıncı alovu ətrafa yayılırdı. Yerə yaxın quraşdırılmış bacadan boz tüstü qırıq-qırıq şəkildə çıxırdı, onun ərtafa yayılıb yoxa çıxması xeyli çəkirdi.Mən qaz sobasının qarşısında dayanmış gənc bir qadın gördüm, özü də çox gənc. O, rəngi solmuş pambıq ətək və köynəkdə idi. Bir az yaxınlaşdıqdan sonra gördüm ki, onun bir qolunun üstündə körpə uşaq var və qadın onu əmizdirir, uşağın başı isə soyuq olmasın deyə, anasının köynəyinin altındadır. Ana bir az irəli gəlib odu üfürərək daha da alışdırdı, sobanın qapağını açaraq paslı qapaqları qaldırmağa başladı ki, böyüyünü seçsin, uşaq isə həmin vaxtı əmməyə davam edirdi və bu, nə ananın işləməsinə, nə də onun incəliklə etdiyi hərəkətlərinə mane olurdu. Onun hərəkətləri çox səliqəli və bacarıqlı idi. Sobadan çıxan narıncı alov çadırın üzərinə oynayan kölgələr salırdı.Mən indi lap yaxında idim və qızarılan qaxac olunmuş donuz ətinin və bişən çörəyin ətrini iyləyə bilirdim, bunlar ən xoş, ən ləzzətli qoxular idi mənimçün. Şərqdən gələn işıq sürətlə artmağa başlayırdı. Mən sobaya yaxınlaşıb əllərimi ona tərəf uzatdım və istiliklə təmasdan bütün bədənimi əsməcə tutdu. Çadırın örtüyü qalxdı və oradan cavan bir oğlan çıxdı, onun arxasınca da yaşlı bir kişi gəlirdi. Onlar mavi rəngli yeni cins kombinezon və bürünc düymələri parıldayan cins gödəkcə geyinmişdilər. Hər ikisinin üz cizgiləri iti idi və bir-birinə bənzəyirdilər.Cavanın qara qısa saqqalı və qocanın da boz qısa saqqalı vardı. Onların başları və sifətləri yaş idi, saçlarında su süzülüb onların sıx saqqallarında toplanır, su yanaqlarını parlaq edirdi. Onlar işaran şərqə birlikdə baxaraq sakitcə dayanmışdılar, eyni vaxtda əsnədilər və qırovun üzərinə düşən işığa baxdılar. Sonra da dönüb məni gördülər.

– Sabahın xeyir, – yaşlı kişi dedi. Onun üzünün ifadəsindən bunu səmimi deyib-demədiyini bilmək olmurdu.

– Sabahınız xeyir, cənab, – mən dedim.

– Hər vaxtın xeyir, – cavan dedi.

Onların üzündəki su yavaş-yavaş quruyurdu. Onlar sobaya yaxınlaşıb əllərini qızdırmağa başladılar.

Qız öz işi ilə məşğul idi, üzünü çevirmişdi və diqqəti etdiyi işdə idi. Onun saçları üzünə tökülməsin deyə, bir bağla yığılmışdı, ona görə də qız hərəkət etdikcə kürəyinə sallanmış, bir yerə toplanmış saçı yellənirdi. O, qalay fincanları paltar sandığının üstünə qoydu, qalay boşqab, bıçaq-çəngəli də çıxardı. Sonra da qızarmış əti yağın içindən çıxarıb böyük dayaz qalay qaba qoydu, xırçıldayan ət açılır və xışıldayırdı. Qız sobanın paslı qapağını açdı və içi iri çörəklərlə dolu olan yastı bir tava çıxardı.Qaynar çörəyin ətri ətrafa yayılan kimi hər iki kişi nəfəslərini içəri çəkdilər.

***Yaşlı mənə tərəf döndü:***

***– Səhər yeməyini yemisən?***

***– Elə isə gəl bizimlə əyləş.***

***Bu işarə idi. Biz sandığa yaxınlaşıb onun ətrafında elə yerdəcə oturduq. Cavan məndən soruşdu:***

***– Pambıqyığansan?***

***– Düz on iki gündür işləyirik, – cavan dedi.***

***Qız soba tərəfdən dilləndi:***

***– Onlara hətta yeni geyim də veriblər.***

Hər iki kişi yeni cins kombinezonuna baxıb azacıq gülümsədilər.

Qız isə qabdakı əti, qəhvəyi çörəkləri, ətin üzərinə tökmək üçün bir kasa sous və bir çaynik qəhvə gətirib özü də sandığın yanına çökdü. Uşaq onu hələ də əmirdi, başı yenə də köynəyin altında idi. Mən uşağın ağzını marçıldatmamasını eşidə bilirdim.

Biz yeməkdən boşqablarımıza qoyduq, çörəyin üzərinə sous tökdük və qəhvəmizin içinə qənd saldıq. Qoca kişi ağzını yeməklə doldurdu və çeynəməyə başladı, çeynədi-çeynədi, nəhayət, uddu və dedi:

– Aman Tanrım, çox dadlıdır.

Yenə də ağzını yeməklə doldurdu.

Cavan dedi:

– Biz on iki gündür ki, yaxşı yeyirik.

Biz hamımız yeməyi tələsə-tələsə, acıqla yeyirdik. Boşqabımız boşalan kimi onu yenidən doldururduq, nəhayət, doyduq və isindik. Acı qaynar qəhvə boğazımızı yandırdı. Qəhvənin fincanlarımızın içində qalan dibini yerə töküb onları yenə də doldurduq.

İşıq hələ indi rəngə boyanırdı ? qırmızımtıl işartıya. Bu rəng havanı soyuq göstərirdi. Hər iki kişi üzünü şərqə sarı çevirmişdi, ona görə də onların üzləri çıxan günəşin rənginə boyanmışdı. Mən də bir anlıq başımı qaldırdım və qoca kişinin gözlərinin içində dağların və onların üzərindən gələn işığın əksini gördüm.

Sonra hər iki kişi fincanlarının dibini yerə boşaldıb ayağa qalxdılar.

– Artıq getmək vaxtıdır, – yaşlı olan dedi.

***Cavan mənə tərəf döndü.***

***– Sən də pambıq yığmaq istəyirsənsə, bəlkə, sənin üçün bir şey edə bilərik.***

***–Yox, çox sağ olun. Yoluma davam etməliyəm. Səhər yeməyinə görə minnətdaram.***

***Yaşlı kişi əlini inkar anlamında yellədi.***

***– Yaxşı. Xoş getdin.***

***Onlar birlikdə uzaqlaşdılar. Şərq tərəfdən gələn şəfəq havanı işıqlandırmışdı. Mən də cığırla üzüaşağı getdim.***

***Vəssalam. Mən, əlbəttə ki, bu hadisənin məndə nəyə görə xoş iz buraxdığını bilirəm. Lakin mən bu barədə düşünəndə o möhtəşəm gözəlliyin bir parçası var idi ki, indi mənim qızarmağıma səbəb olur.***